# Xocalı soyqırımı xarici KİV-də

**Fransalı jurnalist Can-İv Yunet** yazırdı: "Biz Xocalı faciəsinin şahidi olmuşuq. Yüzlərlə ölənlərin meyitlərini görmüşük. Onların arasında qadınlar, qocalar, uşaqlar və Xocalının müdafiəsində duran adamlar var idi. Bizim ixtiyarımıza vertolyot verilmişdi. Hündürlüyə qalxaraq havada gördüklərimizi kameraya çəkirdik, Xocalı və onun ətrafını lentə alırdıq. Bu zaman erməni hərbi birləşmələri bizim vertolyotu atəşə tutdular və biz məcburiyyət qarşısında qalıb çəkilişi yarımçıq qoyaraq geri qayıtdıq. Mən müharibə haqqında çox eşitmişəm, alman faşistlərinin qəddarlığından oxumuşam, ancaq ermənilər dinc əhalini və 5-6 yaşlı uşaqları öldürməklə vəhşilikdə onları belə arxada qoymuşdular. Biz xəstəxanalarda, vaqonlarda, hətta uşaq bağçaları və məktəblərin otaqlarında çoxlu sayda yaralının olduğunu görmüşük".

❖ ❖ ❖

**V.Belıx - "İzvestiya"qəzetinin müxbiri:** "Zaman-zaman Ağdama meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bir neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddi-hüdudu yox idi".

❖ ❖ ❖

**"Krua l`Eveneman" jurnalı (Paris), 25 fevral 1992-ci il:** "Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar 1.000 insanın öldüyünü söyləyirlər".

❖ ❖ ❖

**"Sandi Tayms" qəzeti (London), 1 mart 1992-ci il:** "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər".

❖ ❖ ❖

**"Faynenşl Tayms" qəzeti (London), 9 mart 1992-ci il:** "Ermənilər Ağdama tərəf gedən dəstəni güllə yağışına tutmuşlar. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar. Lübnanlı kameraman ölkəsinin zəngin erməni daşnaq lobbisinin Qarabağa silah və əsgər göndərdiyini təsdiq etmişdir".

❖ ❖ ❖

**"Tayms" qəzeti (London), 4 mart 1992-ci il:** "...Meyitlərin çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdı".

❖ ❖ ❖

**"İzvestiya" (Moskva), 4 mart 1992-ci il:** "Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür".

❖ ❖ ❖

**"Le Mond" qəzeti (Paris), 14 mart 1992-ci il:** "Ağdamda olan xarici jurnalistlər, Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu, reallıqdır".

Azərbaycan.- 2019.-26 fevral.- S.8.